**Bank Respublika**
sizə faydalı

**“Bank Respublika” ASC Daxili Audit Departamentinə “Auditor” vəzifəsi üzrə vakansiya elan edir.**

**Ümumi vəzifə öhdəlikləri:**

- İstehlak kreditləri sahəsində daxili nəzarət sistemlərinin mövcud olmasının, effektivliyi və adekvatlığının yoxlanılması və qiymətləndirilməsi;
- Zəruri hallarda bankın daxili qaydaları, prosedurları və əsasnaməsində dəyişikliklərin edilməsi üzrə tövsiyələrin verilməsi;
- Yoxlama obyektinə dair ehtimal olunan risklərin müəyyənləşdirilməsi;
- Kredit sahəsində audit testlərinin həyata keçirilməsi;
- Filiallarda kredit portfellərinin təhlili və monitorinqinin həyata keçirilməsi.

**Namizədə qarşı tələblər:**

- Ali iqtisadi və ya hüquqi təhsil;
- Daxili audit sahəsində və ya istehlak kreditləri üzrə kredit mütəxəssisi vəzifəsində ən azı bir il iş təcrübəsi;
- Analitik düşünmə qabiliyyəti;
- Dil bilikləri: Azərbaycan dili mükəmməl olmalı, rus və ingilis dilləri arzuolunandır;
- Excell proqramında işləmə bacarığı;
- Ünsiyyət qurma bacarığı;
- Öz fikirlərini yazılı şəkildə ifadə etmək bacarığı;
- Bankın filiallarına zərurət zamanı ezamiyyələrə gedə bilmək imkanı və istəyinin olması;
- Sürücülük vəsiqəsinin olması arzuolunandır.

**Sizə nə təklif edirik?**

- Əlverişli iş mühitində çalışmaq imkanı;
- Karyera və inkişaf perspektivləri.

Göstərilən tələblərə cavab verən namizədlər öz CV-lərini HR@bankrespublika.az elektron ünvanına göndərə bilərlər.

Müraciət etdiyiniz vəzifənin adını email-in mövzu hissəsində **“Auditor”** şəklində göstərməyiniz xahiş olunur. Əks təqdirdə belə müraciətlilərin namizədliyinə baxılmaya bilər. Həmçinin bildirmək istərdik ki, işəqəbul prosesinin növbəti mərhələsi üçün yalnız seçilmiş namizədlərlə əlaqə saxlanılacaqdır.